

## DƏRSDƏN KƏNAR FƏALİYYƏT VƏ TƏDBİRLƏR

Müxtəlif klub və mərkəzlər tələbələrimizin fərdi inkişafına xidmət edir. Mütəmadi olaraq müxtəlif məşğələlər, simulyasiya və ekskursiyalar, xarici ölkə səfirləri ilə görüşlər, tanınmış ekspertlərlə müzakirələr təşkil olunur. Avropa Birliyinin Erasmus+ proqramının dəstəyi ilə təşkil olunan məhşur "Jean Monnet" seminarları beynəlxalq munasibətlərdə, Avropa və regionumuzda baş verən siyasi prosesləri müzakirə etmək üçün geniş imkan yaradır.

AZ1096
Məhsəti küç. 41
Bakı, Azərbaycan
(994 12) 421 10 93 — 238 (daxili)
(994 12) 421 79 16 — 238 (daxili)
politics@khazar.org
www.khazar.org
www.facebook.com/dpsirku

Xəzər Universiteti
1991
Bakı
KHAZAR UNIVERSITY

**Hər gün, hər saat mükəmməlliyə doğru!**

- POLİTOLOGİYA
- BEYNƏLXALQ MÜNASİBƏTLƏR
- REGİONŞÜNASLIQ (AVROPA)



## İXTİSASLARIMIZ

- **Politologiya**
  Hakimiyyət və onun bölgüsü, siyasi sistemlər, cəmiyyət və dövlət anlayışlarını izah edir. Siyasi partiyalar, demokratiya anlayışı, siyasi mədəniyyət və s. haqqında biliklər əldə etməyə imkan verir. Eyni zamanda, Azərbaycan Respublikasının müasir dünyanın iqtisadi və siyasi sistemində özünəməxsus yerini müəyyən etmək bacarığını aşılayır.

- **Beynəlxalq Münasibətlər**
  Dövlətlərarası münasibətləri, beynəlxalq təşkilatların rolunu, bəşəriyyətin qlobal problemləri və onların həlli yolları, müasir inteqrasiya proseslərinin formalaşma şəraiti, onun nəzəri və praktiki aspektlərini və s. təhlil etməyi öyrədir. Eyni zamanda, ölkəmizin qloballaşan dünyanın siyasi sistemində yerini müəyyən etmək bacarığı aşılayır.

- **Regionşünaslıq (Avropa)**
  Regionunun hüquq və siyasi sistemlərini, dünya siyasətindəki yerini və dünya iqtisadi inkişafına təsir imkanlarını öyrənir. Həmçinin, region ölkələrinin dil və ədəbiyyatı, tarix və mədəniyyəti barədə bilik və bacarıqlar əldə etməyə imkan verir.









## NİYƏ BİZ?

- İxtisas fənnlərini, əsasən, ingilis dilində tədris edirik
- Xaricdə təhsil almış və zəngin təcrübəyə malik müəllimlərimiz var
- Sağlam və şəffaf akademik mühit var
- Tədris proqramlarımız dünyanın qabaqcıl universitetlərinin proqramlarına uyğundur
- Erasmus+, Mevlana və digər beynəlxalq proqramlar çərçivəsində xarici universitetlərdə təhsil almaq imkanı var
- Diplomlarımız bütün dünyada tanınır
- Müasir əmək bazarına uyğun kadr hazırlayırıq

## MƏZUNLARIMIZ HARADA İŞLƏYƏ BİLƏR?

- Beynəlxalq təşkilatlar
- Diplomatik nümayəndəliklər
- Qanunvericilik və icra hakimiyyəti orqanları
- Yerli özünüidarəetmə orqanları
- Siyasi partiya təşkilatları
- Vətəndaş cəmiyyəti təşkilatları
- Media qurumları
- Qeyri-dövlət müəssisələri və s.



